DEMOKRASİ PLATFORMU DERGİSİ

Demokrasi Platformu Dergisi
International Refereed Journal
ISSN: 1305-4600
11 (36), 2021, 151-159.

# Azerbaycan Cumhuriyeti'nin Türkiye Büyükelçisi Reşad Memmedov ile Röportaj: Azerbaycan'da Kadim ve Güncel Gelişmeler

## Interview with Reşad Mammadov, Ambassador of the Republic of Azerbaijan to Turkey: Ancient and Current Developments in Azerbaijan

**Selma YEL**

Prof. Dr., Gazi Üniversitesi, Eğitim Fakültesi, Temel Eğitim Bölümü
Prof., Gazi University, Faculty of Education, Department of Basic Education, Ankara/Türkiye
**E-Posta**: selmayel@gazi.edu.tr
**ORCID ID:** 0000-0002-9624-6966

**Makale Bilgisi/Article Information**

**Makale Türü / Article Type:** Röportaj / Interview
**Yayın Sezonu / Pub Date Season:** Kış-Aralık/ Winter-December
**Geliş/Received**: 21 Mayıs/May 2022
**Kabul/Accepted**: 10 Haziran/June 2022
**Yayın/Published**: 15 Haziran /June 2022.

**Atıf/Cite As**

Yel, Selma. "Azerbaycan Cumhuriyeti'nin Türkiye Büyükelçisi Reşad Memmedov ile Röportaj: Azerbaycan'da Kadim ve Güncel Gelişmeler". *Demokrasi Platformu Dergisi,* 11 (36), 2021, 151-159.

**İntihal/Plagiarism**

**İntihal Taraması/Plagiarism Detection:** Bu makale intihal taramasından geçirildi ve intihal tespit edilmemiştir. /This paper was checked for plagiarism. No plagiarism detected.
**Etik Beyan/Ethical Statement**: Bu çalışmanın hazırlanma sürecinde bilimsel ve etik ilkelere uyulduğu ve yararlanılan tüm çalışmaların kaynakçada belirtildiği beyan olunur/It is declared that scientific and ethical principles have been followed while carrying out and writing this study and that all the sources used have been properly cited (Selma Yel)
**Finansal Destek / Grant Support:** Yazarlar bu çalışma için finansal destek almadıklarını beyan etmiştir. / The authors declared that this study has received no financial support.
**Web:** https://www.demokrasiplatformu.com/dergi
**e-mail to**: demokrasiplatformudergisi@gmail.com
**Copyright** © Published by Serkan Yorgancılar, Ankara-Turkey.

**Öz**

Azerbaycan ve Türkiye arasındaki ilişkiler kültürel, ekonomik, siyasi ve askeri ortaklıklardan öteye geçerek "iki devlet, tek millet" anlayışı içerisinde kardeşlik hukuku ile ilerlemektedir. Her iki devletin kurumları arasında köklü ilişkiler tesis edilmektedir. Bu bağlamda Demokrasi Platformu Dergisi Baş Editörü Sayın Prof. Dr. Selma Yel, Sayın Azerbaycan Büyükelçisi Raşad Eyneddin oğlu Mammadov ile Azerbaycan Türkiye Büyükelçiliği rezidansında 26 Mayıs günü bir röportaj gerçekleştirmiştir. Röportajda, Sayın Büyükelçinin Türkiye hakkındaki izlenimleri, Azerbaycan-Türkiye ilişkilerinin dünü ve bugünü, 44 günlük Karabağ Zaferi, Azerbaycan-Türkiye ilişkilerinin coğrafyamız ve dünya siyaseti açısından önemi ve Demokrsi Platformu Dergisinin Türk dünyasına dair vizyonu konu edilmiştir. Sayın Büyükelçi, Türkiye ve Azerbaycan iş birliğinin Türk coğrafyasında elde edilen ekonomik, siyasi, kültürel ve askeri kazanımlara vurgu yapmıştır. Bu kazanımlardan birisi olan Türk devletleri Teşkilatı'nın coğrafyamızın istikrarı ve birliği ve kalkınması açısından değeri son derece önemlidir. Sayın Mammadov, röportajında Karabağ Zaferi'nin iki ülke kardeşliği açısından değerine ve diğer pek çok önemli hususa dikkat çekmiştir.

**Anahtar Kavramlar**: Azerbaycan, Türkiye, Karabağ, Raşad Eyneddin oğlu Mammadov, Röportaj

**Abstract**

The relations between Azerbaijan and Turkey go beyond cultural, economic, political and military partnerships and progress with the law of brotherhood within the understanding of "two states, one nation". Deep-rooted relations are established between the institutions of both states. In this context, the Editor-in-Chief of Journal of Democracy Platform, Prof. Dr. Selma Yel held an interview with the Ambassador of Azerbaijan Raşad Eyneddin oglu Mammadov at the residence of the Azerbaijan Turkish Embassy on 26 May. In the interview, Mr. Ambassador's impressions about Turkey, the past and present of Azerbaijan-Turkey relations, the 44-day Karabakh Victory, the importance of Azerbaijan-Turkey relations in terms of our geography and world politics, and the vision of the Journal of Democracy Platform on the Turkish world were discussed. The Honorable Ambassador emphasized the economic, political, cultural and military achievements of the cooperation between Turkey and Azerbaijan in the Turkish geography. The value of the Organization of Turkish States, which is one of these achievements, is extremely important in terms of the stability and unity of our geography and its development. In his interview, Mr. Mammadov drew attention to

the value of the Karabakh Victory in terms of the brotherhood of the two countries and many other important issues.

**Keywords:** Azerbaijan, Turkiye, Karabakh, Rashad Mammadov, Interview

## Röportaj Soruları

Sayın Büyükelçim öncelikle Türkiye'ye hoş geldiniz. İlk izlenim olarak ülkemiz hakkındaki duygu ve düşünceleriniz bu görev süresi içinde nasıl bir değişim ve gelişim süreci geçirdi?

-Təşəkkür edirəm. Türkiyə bütün Azərbaycan xalqı üçün qardaş ölkə, ikinci vətəndir. Mənim üçün də hər zaman Türkiyə xüsusi əhəmiyyətli bir ölkə olmuşdur. Azərbaycan Prezidenti xüsusi etimad göstərib məni qardaş ölkəyə səfir göndərmişdir. Gəldiyim bir ilə yaxın müddətdə Türkiyəni daha yaxından tanımaq fürsəti əldə etdim. Bu ölkə öz unikal gözəlliyi, insanlarının mərdliyi, qonaqpərvərliyi ilə məni daha çox heyran etdi.

İkinci Karabağ Savaşı'nda Azerbaycan Ordusu'nun elde ettiği haklı zafer, bölgedeki normalleşme süreçlerine de kapı aralamıştır. Bu kapsamda Bakü'deki Zafer Töreni esnasında Azerbaycan Cumhurbaşkanı Sayın İlham Aliyev ve Türkiye Cumhurbaşkanı Sayın Recep Tayyip Erdoğan tarafından dile getirilen ve "3+3" şeklinde formüle edilen Altılı İşbirliği Platformu'na dair görüşlerinizi bizimle paylaşabilir misiniz?

-Qeyd etdiyiniz kimi, Azərbaycan 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmış, öz ərazi bütövlüyünü bərpa etmişdir. Bu müharibədə Türkiyə də Azərbaycana siyasi və mənəvi dəstəyini nümayiş etdirmiş, bütün beynəlxalq platformalarda ölkəmizin haqlı mövqeyini dəstəkləmişdir.

Bugün regionda yeni əməkdaşlıq fürsətləri yaranmışdır. Regionun geosiyasətinin dəyişməsinə, uzunmüddətli sülhün əldə olunmasına ehtiyac vardır. Bu baxımdan təkli olunmuş 3+3 formatı dövlətlər arasında sıx inteqrasiyanı nəzərdə tutur. İştirak edən hər bir dövlətin buradan fayda əldə edəcəyi şübhəsizdir. Altılı platforma region ölkələrinə maraqlarını uzlaşdırmağa, iqtisadi dividentlər əldə etməyə şərait yaradır. Altılı platformanın xüsusilə 2 yöndə əhəmiyyətini qeyd etmək istərdim. İlk olaraq 3+3 platforması iqtisadi baxımdan

böyük potensial vəd edir. Bununla regionun nəqliyyat-tranzit imkanları artacaq. Yeni kommunikasiyaların açılması, qarşılıqlı sərmayə qoyuluşunun təşviqi həm iştirakçı ölkələrin iqtisadi inkişafına töhfə verəcək, həm də bütövlükdə daha geniş coğrafi bölgənin Avropa və Asiya arasında tranzit qovşağı kimi möhkəmlənməsini şərtləndirəcəkdir. Digər bir istiqamət təhlükəsizliklə bağlıdır. 3+3 formatı bölgə ölkələrini birləşdirməklə, Cənubi Qafqazda təhlükəzisliyin təminatçısı olacaqdır. Sevindirici haldır ki, artıq bu formatla bağlı konkret işlər də görülməkdədir və bu istiqamətdə ilk görüşlər keçirilib. Ümid edirik ki, Azərbaycan və Türkiyənin ortaq təşəbbüsü olan bu format uğurla həyata keçiriləcəkdir.

Söz konusu işbirliğinin sağlanması noktasında bölge devletleri arasındaki normalleşme süreçleri büyük önem arz ediyor. Bu noktada Azerbaycan Cumhurbaşkanı Sayın İlham Aliyev'in Ermenistan'la barış anlaşması imzalanması için Bakü'nün öne sürdüğü şartların Erivan tarafından kabul edildiğini açıklamasının çok önemli olduğu ifade edilebilir. Barış görüşmelerindeki son durum hakkında bize bilgi verebilir misiniz?

-Azərbaycan hər zaman qonşu dövlətlərlə yaxşı münasibətləri dəstəkləmişdir. Müstəqilliyini bərpa etdikdən sonra digər dövlətlərlə münasibətlərini sağlam təməllər üzərinə qurmuş, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi pnəm vermişdir. Təəssüf ki, Ermənistan Azərbaycana qarşı təcavüzkar mövqe tutmuş, yenicə müstəqillik əldə etmiş Azərbaycanda daxili vəziyyətin qarışıqlığından istifadə edərək torpaqlarımızın demək olar ki, 20%-i işğal etmişdir. Bütün bunlara baxmayaraq, Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra Ermənistana qarşı da xoş niyyət nümayiş etdirir. İşğalın sona çatmasının ardından Ermənistanla münasibətlərin normallaşmasını dəstəkləyirik. Bu ilin əvvəlində münasibətlərin normallaşması üçün 5 əsas şərt Azərbaycan tərəfindən Ermənistan rəhbərliyinə təqdim edilmiş və bu prinsiplər qarşı tərəfdən qəbul edilmişdir. Azərbaycanın bu addımı beynəlxalq ictimaiyyət tərəfindən də təqdirlə qarşılanmışdır. Hazırda tərəflər arasında danışıqlar davam etdirilir, bu istiqamətdə son 2 ayda Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında Brüsseldə üç görüş keçirilmişdir. Delimitasiya ilə bağlı komissiyanın yaradılması barədə razılıq əldə olunmuşdur. Ötən il may ayında bu formatda ilk görüş həyata keçirilmişdir. Azərbaycan hər zaman öz

öhdəliklərinə sadiqdir, Ermənistan tərəfi də eyni məsuliyyəti hiss etdikdə, hesab edirik ki, dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi imzalanacaqdır.

Bölgedeki normalleşme süreçlerinin tüm devletlerin refahına hizmet etmesini sağlayacak en önemli konu da koridorlar olarak dikkat çekiyor. Bu noktada Zengezur Koridoru'nun açılması hususundaki son durum hakkında bilgi verebilir misiniz? Bu koridorun Azerbaycan ve bölge için öneminden bahsedebilir misiniz?

Zəngəzur dəhlizinin açılması 10 noyabr 2020-ci il tarixlində Azərbaycan Respublikasın Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri arasında imzalanmış Üçtərəfli Bəyannaməsinin əsas müddəalarından biridir. Bunun özü böyük siyasi nailiyyət, tarixi qələbədir. Zəngəzur dəhlizinin reallaşması həm Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə, həm də Türkiyə ilə birbaşa quru əlaqəsinin yaranmasını təmin edəcək. Zəngəzur dəhlizi yalnız Azərbaycan üçün deyil, bütün region üçün yeni nəqliyyat imkanları yaradacaq. Bu dəhliz Çin və Avropa arasında ən qısa quru yol əlaqəsini təmin edəcək, Avropa və Asiyanın daha sıx birləşməsinə təkan verəcək.Bu yol Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin birləşməsində və nəqliyyat xətlərinin şaxələndirilməsində mühüm rol oynayacaqdır.

Zəngəzur dəhlizinin ən önəmli tərəflərindən biri də türk dünyasını əlaqələndirəcək olmasıdır. Beləliklə, bir-birindən qoparılmış türk dünyası coğrafiyası nəqliyyat və logistika layihələri ilə birləşdirilir.Azərbaycanın tarixi zəfərinin əsas nəticələrindən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlı danışıqların aparılmasıdır. Hazırda bu istiqamətdə müzakirələr aparılır. Ermənistanın müxtəlif bəhanələrlə buna mane olmağa çalışmasına baxmayaraq, Zəngəzur dəhlizi artıq reallıqdır. Bunu bütün dünya qəbul edib və dəhlizin reallaşması sadəcə zaman məsələsidir. Zəngəzur dəhlizinin bərpası bölgədə sülhün və sabitliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Öte yandan uluslararası toplumun temel gündem maddesinin 24 Şubat 2022 tarihinden beri Rusya ile Ukrayna arasındaki savaş olduğunu söyleyebiliriz. Bu

savaşın Karabağ'daki duruma ne gibi etkileri olabilir? Azerbaycan bu savaşa nasıl bakıyor?

Tarixən Azərbaycana məxsus olmuş və bu gün də bizim suverenliyimiz altında olan torpaqlarımız 44 günlük Vətən Müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusu tərəfindən azad olunmuşdur, ərazi bütövlüyümüz bərpa olunmuşdur. 30 ilə yaxın işğal altında olmuş bu torpaqlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Hazırda bu ərazidə intensiv şəkildə bərpa və yenidənqurma işləri aparılır, öz doğma torpaqlarından köçkün düşmüş azərbaycanlıların məskunlaşdırılması prosesinə başlanır. Azərbaycan haqlı mövqeyini dəfələrlə bəyan etmişdir və biz ərazi bütövlüyümüzü hər zaman qorumaq əzmindəyik.

Azərbaycan beynəlxalq hüququn əsas prinsiplərindən olan dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipiplərini hər zaman dəstəkləyir. Ukrayna ilə bağlı da daha öncə beynəlxalq təşkilatlar çərçivəsində öz mövqeyini ifadə etmiş və ərazi bütövlüyünü dəstəkləmişdir.. Yaxın və tarixi münasibətlərimizin olduğu bu iki dövlət arasında qarşıdurma bizim üçün də arzuolunmazdır. Ümid edirik və inanırıq ki, bu qarşıdurma ən qısa zamanda hər iki tərəfin marağına uyğun olaraq diplomatik danışıqlar yolu ilə həll oluna biləcəkdir.

Karabağ Savaşı sonrasında Azerbaycan ile Türkiye arasındaki kardeşlik ilişkilerinin Şuşa Beyannamesi vesilesiyle bir kader birlikteliğine evrildiğini görüyoruz. İki ülke arasındaki ilişkilerin mevcut durumu ve işbirliğinin potansiyeli hakkında neler düşünüyorsunuz?

Azərbaycan – Türkiyə münasibətləri ölkəmizin müstəqilliyini qazandığı 1991-ci ildən etibarən yüksələn xətlə inkişaf etmişdir. Ulu Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı əsasında inkişaf edən Azərbaycan-Türkiyə münasibətləri hazırda tarixinin ən yüksək səviyyəsinə çatmışdır.

Şübhəsiz ki, bu münasibətlərin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib

Ərdoğanın səmimi dostluq münasibətlərinin rolunu inkar etmək olmaz. Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın başqa ölkələr mövcud deyil, bizim münasibətlərimiz dövlətüstü, qardaşlıq xarakteri daşıyır.

Ötən il Azərbaycanın mədəniyyət paytaxtı, xalqımız üçün xüsusi bir önəmi olan Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması da ölkələrimiz arasında münasibətlərin inkişafında yeni bir inkişaf mərhələsinin əsasını qoymuş, münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə yüksəltmişdir. Bu Bəyannamədə Azərbaycan və Türkiyə arasında əməkdaşlığın bütün sahələri öz əksini tapmışdır, deyə bilərik ki, bu sənəd Azərbaycan-Türkiyə münasibətlərinin "yol xəritəsi"ni müəyyən etmişdir.

Bu ay biz Şuşa Bəyannaməsinin imzalanmasının 1-ci ildönümünü qeyd edirik. Keçən 1 ildə Azərbaycan və Türkiyə müxtəlif sahələrdə əməkdaşlığını daha da genişləndirilmişdir. Müdafiə və texnologiya sahəsində əməkdaşlığımızı xüsusi qeyd edə bilərəm. Bu il Türkiyənin "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalı ilk dəfə olaraq ölkə ərazisindən kənarda – məhz Azərbaycanda təşkil olunub. Hər iki ölkədə reallaşan böyük infrastruktur layihələrinin açılışını dövlət başçılarımız bərabər həyata keçirmişdir. İkitərəfli münasibətlərin müxtəlif sahələrində yeni razılaşmalar əldə olunmuşdur.

Əminəm ki, Azərbaycan – Türkiyə münasibətləri gələcəkdə də yüksək templə inkişafını davam etdirəcək və iki qardaş xalq həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq sahələrində yeni-yeni nailiyyətlər əldə edəcəklər. Azərbaycanın Türkiyədəki Səfirliyi olaraq biz də bu münasibətlərin inkişafına töhfə vermək əzmindəyik.

Karabağ'ın işgalden kurtarılmasının yalnızca Azerbaycan için değil; Türk Dünyası açısından da çok önemli olduğunu biliyoruz. Nitekim Azerbaycan Ordusu'nun zaferi, tüm Türk devletlerinin özgüvenini arttırmıştır. Bunun yansıması olarak da Türk Konseyi'nin 12 Kasım 2021 tarihli zirvesinde konsey, Türk Devletleri Teşkilatı adını almış ve kurumsallaşma noktasında mühim adımlar atmıştır. Aslında bu adımların temelinin Azerbaycan'ın dönem başkanlığında hazırlandığı da bilinmektedir. Bu çerçevede Azerbaycan'ın Türk Dünyası'na olan yaklaşımı ve entegrasyon süreçlerinin geleceğine dair beklentilerini bizimle paylaşabilir misiniz?

-Tarix, mədəniyyət, dil birliyi üzərində qurulmuş Türk Dövlətləri Təşkilatının üzv dövlətləri təbii müttəfiqlərdir. Böyük bir coğrafiyanı əhatə edən, hərbi, siyasi, iqtisadi qüdrəti olan bu təşkilat getdikcə güclənməkdə və əhəmiyyətini artırmaqdadır. 2009-cu ildə Naxçıvan Sazişi imzalandığı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yarandığı zaman yalnız 4 üzvü var idi. Bu gün isə Özbəkistan da təşkilatın tamhüquqlu üzvüdür, Türkmənistan və Macarıstan müşahidəçi statusundadırlar. Beləliklə, təşkilatın rolu regionda və bütün dünyada güclənməkdədir. Türk Dövlətləri Təşkilatı üzv dövlətlər arasında siyasi, iqtisadi, humanitar, mədəni münasibətlərin inkişafına töhfə verir. Ötən il İstanbulda keçirilmiş 8-ci Zirvə Görüşündə Şuranın təşkilata çevrilməsi ilə dövlətlərimizin daha güclü bir şəkildə inkişafa, əməkdaşlığa yürüməsi üçün fürsət yaranmışdır.

Türk dövlətləri ilə konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulması Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Türk Dövlətləri Təşkilatının üzv dövlətləri arasında inteqrasiya proseslərinin genişləndirilməsi üçün Azərbaycan mühüm addımlar atmışdır. Təsadüfi deyil ki, ötən il keçirilən Zirvə Görüşündə Azərbaycanın dövlət başçısı İlham Əliyev türk birliyinin daha da güclənməsində göstərdiyi səylərə görə Türk Dünyasının Ali Ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın Qarabağı Ermənistanın işğalından azad etməsi ilə türk dünyası üçün də yeni imkanlar yarandı. 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı zəfəri türk dövlətlərində gələcəyə inam yaratdı, türk birliyinin güclənməsinə stimul verdi. Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli şəkildə siyasi və mənəvi dəstək verməsi, Azərbaycanın haqlı mövqeyini bütün beynəlxalq platformalarda dəstəkləməsi Azərbaycan-Türkiyə birliyinin gücünü dünyaya göstərdi. Hazırda bu münasibətlər bütün türk dövlətləri üçün bir nümunədir.

Azərbaycan türk dövlətlərinin coğrafi və iqtisadi birliyi üçün çox önəmli bir bir bölgədə yerləşir. Avropa və Asiyanı birləşdirən Şərq-Qərb nəqliyyat dəhlizi üzrəində yerləşən Azərbaycan türk coğrafiyasının mərkəzindədir. Türkiyə ilə birgə həyata keçirdiyimiz Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tiflis-Ərzurum qaz kəməri, Bakı-Tiflis-Qars dəmir yolu, TAP, TANAP kimi nəhəng layihələr Mərkəzi Asiyanı Türkiyə və Avropa ilə əlaqələndirmək üçün geniş imkanlar yaradır.

Zəngəzur dəhlizinin açılması ilə isə türk dünyasının coğrafi bağlantısı tamamlanacaqdır.

Ümumilikdə qeyd edə bilərəm ki, Azərbaycan yeni yaranmış geosiyasi reallıqda mövcud çağırışlara cavab vermək üçün Türk dövlətləri arasında əməkdaşlığın inkişaf etdirilməsinə yeni töhfələr vermək əzmindədir.

Dergimiz aynı zamanda Azerbaycan Türkçesi ve diğer Türkçe lehçelerde de bilimsel makale kabul sürecine başladı. Bu uygulamayı ilk başlatan akademik dergi olduğumuz için gurur duyuyoruz. Türk dünyasında bilimsel iş birliği süreci ile ilgili olarak başka tavsiyeleriniz var mı?

-Dərginizin Türkiyə türkcəsi ilə yanaşı, digər türk dillərində də məqalə qəbul etməyə başlaması təqdirəlayiq haldır. Elmi, humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, türk dövlətlərinin bir-birini daha dərindən anlaması üçün bütün türk dillərinin əhatə olunduğu kütləvi informasiya vasitələrinin geniş yayılması arzuolunandır. Bu eyni zamanda, ortaq köklərə malik olan türk dillərinin özünəməxsus zənginliklərini də qardaş xalqlara nümayiş etdirir.

Son olarak eklemek istediğiniz bir husus var mı?

Bu səmərəli təşəbbüsə görə sizə minnətdarlığımı bildirir, dərginizə yeni yaradıcılıq uğurları arzu edirəm.

Dergimiz adına verdiğiniz destek için çok teşekkür ederiz. Saygılarımızla